**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Gürcüstan**

**Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında**

# Saziş

Gələcəkdə «Tərəflər» adlandırılan Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Gürcüstan Ədliyyə Nazirliyi

iki dövlətin ədliyyə nazirlikləri arasındakı əməkdaşlığın vacibliyini dərk edərək,

Azərbaycan və Gürcüstan hüquqşünasları arasında gələcəkdə qarşılıqlı anlaşmanın və dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədi ilə hər iki dövlətin ədliyyə nazirlikləri arasında əməkdaşlığın zəruriyyətini təsdiq edərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı aşağıdakı istiqamətlərdə həyata keçirəcəklər:

1. hüquq elmi və təcrübəsinin müxtəlif problemləri üzrə ikitərəfli simpoziumların, konfransların və seminarların təşkili;

2. qanunvericilik və hüquq strukturları haqqında informasiya mübadiləsi;

3. bir-birinin ədliyyə orqanları və idarələrinin təşkili və fəaliyyəti ilə daha ətraflı tanış olmaq məqsədi ilə Tərəflərin nümayəndələrinin mübadiləsi;

4. hüquqi kadrların hazırlanması, mütəxəssislərin qarşılıqlı mübadiləsi işində kömək göstərilməsi;

5. tərəflərin ədliyyə orqanları və idarələri arasında tərəfdaşlıq əlaqələrinin yaradılması;

6. qanun layihələrinin hüquqi ekspertizası üçün bərabər əsaslarla mütəxəssislər qruplarının təşkil olunması;

7. milli ədliyyə sistemlərinin informasiyalaşdırılması sahəsində mütəxəssislərin mübadiləsinin həyata keçirilməsi.

Maddə 2

Tərəflər bu Saziş çərçivəsində birgə proqramların hazırlanması üzrə komissiyalar təşkil edə bilərlər.

Maddə 3

Tərəflər bu Sazişin yerinə yetirilməsi məqsədi ilə maliyyə imkanlarını nəzərə alaraq, hər il müvafiq növbəti il üçün konkret əməkdaşlıq layihələrini razılaşdıracaqlar.

Tərəflər əməkdaşlıq üzrə birgə tədbirlərin maliyyələşdirilməsində, nümayəndə heyətinin qalma və təşkilati, həmçinin ilkin tibbi yardım xərclərini qəbul edən Tərəf, getmək və gəlmək üçün nəqliyyat xərclərini isə göndərən Tərəfin ödəməsi prinsipindən çıxış edəcəklər.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə yazılı formada əlavələr və dəyişikliklər edilə bilər.

Bütün əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olacaq protokollarla rəsmiləşdirilir.

Bu Sazişin qüvvəsi dairəsinə aid olan məsələlər üzrə Tərəflər arasında mübahisə və fikir ayrılıqları ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 5

Bu Saziş onun qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların Tərəflərlərin yerinə yetirilməsi haqqında sonuncu bildiriş alındığı tarixdən qüvvəyə minir və bu Sazişin qüvvəsini ləğv etmək niyyəti haqqında digər Tərəfin yazılı bildirişinin Tərəflərdən birinin aldığı gündən altı ay bitənə qədər qüvvədə qalır.

Bu Saziş Tbilisi şəhərində 22 mart 2000-ci ildə Azərbaycan, gürcü və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduqda rus dilində olan mətn istifadə ediləcək.

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi adından**

**(imza)**

**Gürcüstan Ədliyyə Nazirliyi adından**

**(imza)**

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2954-2955.